***1. Şikayətin qəbulu və ilkin baxış***

Bu mərhələdə Palataya daxil olmuş şikayətlər rəsmi şəkildə qeydiyyata alınır.

İlkin baxış zamanı şikayətin Palatanın səlahiyyətləri çərçivəsində olub-olmaması, həmçinin onun forma və məzmun baxımından müəyyən edilmiş tələblərə uyğunluğu yoxlanılır.

Şikayətin əsaslı əlamətlər daşıdığı müəyyən edildikdə, müvafiq qərarla intizam icraatına başlanılır.

***2. İntizam icraatının başlanması***

İntizam icraatı başladıqdan sonra İntizam Komissiyasının bütün üzvləri şikayət materialları ilə yaxından tanış olurlar. Şikayətin predmeti və xüsusiyyətlərindən asılı olaraq, zəruri hallarda müstəqil araşdırma aparılır və ya şikayətə səbəb olan əraziyə (obyektə) baxış keçirilir.

Komissiya iş üzrə bütün zəruri sənədləri, hesabatları və sübutları toplayır. Qiymətləndiriciyə şikayət ərizəsinin surəti göndərilir və ondan **yazılı izahat** alınır.

Qiymətləndirici **Zoom platforması üzərindən** İntizam Komissiyasının iclasına dəvət olunur.

Canlı formatda qiymətləndiricinin fikirləri və iradları dinlənilir.

***4. Rəyin tərtib edilməsi və Qərar qəbulu***

Yazılı izahatlar alındıqdan və Zoom vasitəsilə canlı müzakirələr yekunlaşdıqdan sonra:

İntizam Komissiyası araşdırmanın nəticələrinə dair müvafiq **rəy tərtib edir**.

Tərtib edilmiş həmin rəy yekun qərar qəbul edilməsi üçün **Rəyasət Heyətinə** təqdim olunur.

Rəyasət Heyətində məsələ ümumi müzakirəyə çıxarılır və müvafiq intizam tədbirinin görülməsi barədə yekun qərar verilir.